AZƏRTAC xəbər verir ki, İndoneziya parlamentinin xanım deputatı Anqqia Erma Rini həm öz adından, həm də parlamentdə təmsil etdiyi Milli Oyanış Partiyası fraksiyası adından Ermənistan-Azərbaycan sərhədində son günlərdə baş verən təxribatla əlaqədar bəyanat verib.

Parlamentdə 60-a yaxın üzvü olan fraksiyanın nümayəndəsi Anqqia Erma Rini bəyanatında Ermənistan silahlı qüvvələrinin iyulun 12-dən başlayaraq Azərbaycan Ordusunun Tovuz rayonu istiqamətindəki mövqelərinə etdiyi hücumlar, habelə hərbçilərlə yanaşı, dinc sakinin həlak olmasına görə kəskin şəkildə etirazını bildirib.

İndoneziya parlamentinin üzvü Ermənistanı BMT-nin Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi müvafiq qətnamələrinə hörmətlə yanaşmağa çağıraraq, Ermənistanın bütün silahlı qüvvələrini Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarmasını tələb edib.

## Azərbaycandakı etnik icma rəhbərləri Ermənistanın hərbi təxribatlarını pisləyən bəyanat yayıblar

Azərbaycandakı etnik icma rəhbərləri Ermənistanın hərbi təxribatlarını pisləyən birgə bəyanat yayıblar.

AZƏRTAC bəyanatı təqdim edir. Biz, təmsil etdiyimiz Azərbaycan xalqları adından Ermənistanın 2020-ci il iyul ayının 12-sindən etibarən Azərbaycanın Tovuz bölgəsində törətdiyi hərbi təcavüz aktlarını, təxribatları qətiyyətlə pisləyir, onları Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə qarşı yönəldilmiş çirkin fəaliyyət kimi dəyərləndiririk. Onu da bildiririk ki, Ermənistanının siyasi rəhbərliyi növbəti dəfə məsuliyyətsiz və mənfur əməlləri ilə regionda sülh və təhlükəsizliyin bərqərar olunmasına ciddi şəkildə mane olmuş, digər tərəfdən növbəti məğlubiyyəti ilə öz xalqını xaosa, səfalətə sürükləmiş, daxili siyasi böhranı daha da dərinləşdirmişdir. Həmin təcavüz aktları nəticəsində Azərbaycanın 10-dan çox hərbi qulluqçusu, o cümlədən yüksək rütbəli zabitlər və bir dinc sakin həlak olmuşdur.

Münaqişənin əvvəllərində olduğu kimi, bu gün də Milli Ordumuzun sıralarında Azərbaycanda yaşayan xalqların yüzlərlə nümayəndələri - əsgər və zabitlərimiz var. Eləcə də bu gün müxtəlif xalqların övladları da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çağırışına səs verərək könüllü olaraq orduda xidmət etmək, Azərbaycanın ərazi bütövlüyünü qorumaq, torpaqlarımızı mənfur düşməndən təmizləmək istəyi ilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etmişlər. Azərbaycanda elə bir xalq yoxdur ki, bu müqəddəs amal uğrunda mübarizədə şəhid verməsin. Lakin biz şəhidləri etnik mənsubiyyətinə, dilinə, dininə görə ayırmırıq. Torpaqlarımızın azadlığı uğrunda canlarından keçən qəhrəmanların hər biri bizim üçün əzizdir, igid övladlarımız, qardaşlarımızdır və onların ruhu qarşısında ehtiramla baş əyirik.

Ermənistan dəfələrlə Azərbaycanda yaşayan xalqların içərisinə ədavət toxumu səpməyə, süni qarşıdurma yaratmağa çalışmış, lakin öz mənfur niyyətinə nail ola bilməmişdir. Əksinə, onların çirkin təxribatları, dinc əhaliyə qarşı törətdikləri cinayətlər, döyüş bölgələrində verdiyimiz şəhidlər bizim sıralarımızı daha da genişləndirir, işğalçı düşmənə nifrət hissini artırır, xalqlarımız arasında birlik, qardaşlıq tellərini daha da sarsılmaz edir.

Biz onu da yaxşı bilirik ki, tarixi Azərbaycan əraziləri olan indiki Ermənistan Respublikasında müxtəlif xalqların nümayəndələri yaşamışlar. Lakin Ermənistanda dövlət siyasəti səviyyəsində yürüdülən faşizm, etnik təmizləmə, millətçilik və etnofobiya nəticəsində bu ölkə rəsmi olaraq monoetnik dövlətə çevrilmiş, digər xalqların nümayəndələri açıq təhdid və təzyiq yolu ilə doğma yurdlarından didərgin salınmışlar. Belə olan təqdirdə, Ermənistanın Azərbaycana qarşı apardığı informasiya müharibəsində özünü Azərbaycanda yaşayan xalqların “dostu və himayədarı” kimi təqdim etməsi heç bir mənəviəxlaqi normalara sığmır, bu fəaliyyətin arxasında çirkin məqsədlərin dayanmasını açıq şəkildə göstərir.

Vətənimiz Azərbaycanın ən böyük sərvəti onun etnik müxtəlifliyi, burada yaşayan bütün xalqların tarixi birliyi və qardaşlığıdır. Ölkəmizdə indiyədək etnik və dini zəmində qarşıdurmaların baş verməməsi düşmənlərimizi qıcıqlandırmaqla yanaşı, bizim mənəvi birliyimizin, Azərbaycan Respublikasının yürütdüyü milli siyasətin parlaq təzahürüdür.

Biz Ermənistanın sərhəd bölgələrində, qoşunların təmas xəttində törətdikləri təxribatları qətiyyətlə pisləyir və yekdilliklə bəyan edirik: Ermənistan və onun havadarları yaxşı bilməlidirlər ki, Azərbaycan bizim doğma Vətənimizdir. Onun hər qarış torpağı bizim üçün müqəddəs və əzizdir. Əminliklə deyirik, biz azərbaycanlılar - etnik və dini kimliyindən asılı olmayaraq, Azərbaycanın bütün xalqları Vətənimizin ərazi bütövlüyü, torpaqlarımızın düşməndən təmizlənməsi uğrunda mübarizənin ön sıralarında bu gün də və hər zaman dayanmağa hazırıq! Bizim birliyimiz, Vətən sevgimiz, ona sədaqətimiz sarsılmazdır!

Bəyanatı İmamverdi Həmidov (Talış Mədəniyyət Mərkəzi), Mixail Zabelin (Azərbaycanda Rus icması), Məhəmməd Nooyev (Azərbaycan-Avar İcması İctimai Birliyi), Melih Yevdayev (Bakı Dağ Yəhudiləri Dini İcması), Elman Əhmədov (“Azəri” Tat Mədəniyyət Mərkəzi İctimai Birliyi), Robert Mobili (Azərbaycan Respublikasının Alban-Udi Xristian Dini İcması), Əhmədə Həpo (Azərbaycan Kürd icmasının ağsaqqalı), İmran Rzayev (“Samur” Ləzgi Milli Mərkəzi), Aleksandr Şarovski (Avropa Yəhudilərinin Bakı Dini İcması), Rafiq Abdullayev (“Buduq” Xeyriyyə Cəmiyyəti), Gülcan Miəsautova (“Tuqan tel” Tatar Mədəniyyəti Cəmiyyəti), İsmayıl Rəhimov (Azərbaycanda Yaşayan Axısxa Türkləri “Vətən” İctimai Birliyi), Sevinc Bulacova (İngiloy icması), Rafael Qvaladze (Azərbaycanda yaşayan Gürcü icması), Yuri Osadçenko (Azərbaycan Ukrayna Konqresi İctimai Birliyi) imzalayıblar.

## Serbiyanın müvəqqəti işlər vəkili Azərbaycanın Xarici İşlər Nazirliyinə çağırılıb

İyulun 20-də Serbiya Respublikasının Azərbaycan Respublikasındakı müvəqqəti işlər vəkili Danitsa Veinoviç Xarici İşlər Nazirliyinə çağırılıb və Xarici İşlər Nazirinin müavini Xələf Xələfovla görüş keçirilib. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Görüşdə X.Xələfov əldə edilmiş etibarlı və təsdiqlənmiş məlumata əsasən, Serbiyadan Ermənistana minomyotlar və müxtəlif kalibrli hərbi sursat da daxil olmaqla böyük həcmdə silah-sursatın göndərildiyini qarşı tərəfə bildirib. O, Ermənistan hərbi qüvvələrinin Azərbaycan-Ermənistan sərhədinin Tovuz istiqamətində hücum əməliyyatları zamanı əsasən müxtəlif kalibrli minomyotlardan istifadə edildiyini, sərhədyanı yaşayış məntəqələri və mülki əhalinin təhlükəsizliyini təmin edən Azərbaycanın hərbi qüvvələrinin mövqelərinin artilleriya və minomyot atəşlərinə məruz qaldığını, Ermənistan hərbi qüvvələrinin xain hücumlarının qarşısının alınması zamanı Azərbaycan hərbi qüvvələrinin bir generalı və 11 hərbi qulluqçusunun, o cümlədən bir nəfər sərhəd kəndinin sakininin həlak olduğunu qeyd edib.

Nazir müavini Azərbaycan Respublikası və Serbiya Respublikası arasında strateji tərəfdaşlıq münasibətlərinin mövcud olduğunu, bu xüsusda 2013-cü ildə iki ölkə arasında dövlət başçıları səviyyəsində dostluq və strateji tərəfdaşlığa dair bəyannamənin və 2018-ci ildə strateji tərəfdaşlıq üzrə birgə fəaliyyət planının imzalandığını Serbiya müvəqqəti işlər vəkilinin diqqətinə çatdırıb.

Həmin sənədlərdə Azərbaycan və Serbiyanın bir-birinin suverenliyini və ərazi bütövlüyünü tanıdığı qeyd olunub. Serbiya tərəfinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən BMT Təhlükəsizlik Şurasının qətnamələri və ATƏT-in qərarlarına uyğun olaraq Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı əsasında həllinin tərəfdarı olduğu təsdiq olunub.

Nazir müavini xatırladıb ki, strateji tərəfdaşlıq sənədinə əsasən tərəflər sülhə və sabitliyə təhlükə zamanı adekvat reaksiya vermək məqsədilə təhlükəsizlik və müdafiə sahələrində əməkdaşlığı prioritet istiqamətlər kimi müəyyən ediblər.

X.Xələfov bildirib ki, Azərbaycan Respublikası iki ölkə arasında strateji tərəfdaşlığa sadiq qalaraq çətin vaxtlarda dost Serbiyaya həmişə yardım əlini uzadır və bu Serbiya rəhbərliyi tərəfindən dəfələrlə minnətdarlıqla qeyd edilib. O bildirib ki, Azərbaycan Serbiyanın ərazi bütövlüyünə dəstək məsələsində də hər zaman ardıcıl mövqe nümayiş etdirib.

Nazir müavini Ermənistana silah göndərilməsi məsələsinin hər zaman, o cümlədən də ikitərəfli əlaqələrimizin gündəliyində duran həssas bir mövzu olduğunu vurğulayıb. Bu xüsusda, Serbiya tərəfinin Ermənistanın işğalçı siyasətinə və Azərbaycanın ərazi bütövlüyünə qarşı davam edən təcavüzünə dəstək xarakteri daşıyan qeyri-dost addımının Azərbaycan xalqında və rəhbərliyində dərin təəssüf və acı məyusluq doğurduğunu bildirilib. X.Xələfov bu cür qeyri-dost fəaliyyətlərin Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında dostluq münasibətlərini və strateji tərəfdaşlığa xələl gətirdiyini, yüksək səviyyədə mövcud qarşılıqlı etimada kölgə saldığını vurğulayıb.

Nazir müavini Azərbaycan tərəfinin Ermənistanın Cənubi Qafqaz istiqamətində vəziyyətin destabilizasiyasına səbəb olan, regiondakı təhlükəsizlik və sabitliyə xələl gətirən hərbi təxribatının məkrli dərin qatlı məqsədlərinə işarə edərək, Serbiya Respublikasından izahat və bu cür hərəkətlərə gətirib çıxaran səbəblərin aradan qaldırılmasını gözlədiyini bildirib.

Serbiyanın Azərbaycandakı müvəqqəti işlər vəkili xanım Danitsa Veinoviç qeyd olunan məsələlərlə bağlı məlumatının olmadığını söyləyib, məlumatları Serbiya tərəfinə çatdıracağını vəd edib, baş vermiş bu hadisələrdən təəssüf hissi keçirdiyini və bu hadisələrin Serbiya-Azərbaycan strateji tərəfdaşlıq və dostluq münasibətlərinə xələl gətirməyəcəyinə ümidvar olduğunu qeyd edib.

# Dünya Azərbaycanı dəstəkləyir, Ermənistanın təcavüzünü pisləyir

### İstanbul

İyulun 19-da İstanbulun mərkəzi bölgələrindən olan “Beyazıt meydanı”nda Ermənistan silahlı qüvvələri tərəfindən Tovuz istiqamətində törədilən təxribatla bağlı etiraz aksiyası keçirilib.

Türkiyədən qardaş Azərbaycana dəstək məqsədilə keçirilən tədbir “Turan Ocaqları”, “Bütöv Azərbaycan Ocaqları” İctimai birliklərinin, eləcə də Türkiyədə və İstanbulda fəaliyyət göstərən bir çox Azərbaycan-Türkiyə dostluq cəmiyyətlərinin və İstanbul Universiteti nəzdindəki “Azərbaycan Mədəniyyət və Həmrəylik Birliyi”nin təşəbbüsü ilə baş tutub. Aksiyada hər iki ölkənin şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edənlər Ermənistanın Azərbaycana qarşı illərdən bəri davam edən işğalçılıq siyasətindən bəhs edib, iyulun 12-dən başlayaraq Azərbaycanın Tovuz rayonu istiqamətində ölkəmizə qarşı törədilən hərbi təxribatlardan danışıblar.

Qardaş Türkiyənin Azərbaycana dəstəyinin qürurverici olduğunu bildirən çıxışçılar Azərbaycanın və Türkiyənin dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın hər şəraitdə ölkələrimizin, eləcə də xalqlarımızın maraq və mənafelərini qarşılıqlı şəkildə müdafiə etdiklərini vurğulayıblar.

Mitinqdə Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, erməni işğalına son qoyulması ilə bağlı şüarlar səsləndirilib.

Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinin dərhal dayandırılması, işğalçı tərəfin hərbi qüvvələrinin BMT Təhlükəsizlik Şurasının və ATƏT-in qərar və qətnamələrinə uyğun olaraq Azərbaycan ərazisini tərk etməsi tələb olunub.

Bildirilib ki, son günlər düşmənin davamlı hərbi təxribatlarının qarşısını qətiyyətlə alan Azərbaycan Ordusu işğal altındakı torpaqları düşməndən azad etmək iqtidarındadır.

Tədbirdə iştirak edən Türkiyə vətəndaşları lazım olduğu təqdirdə azərbaycanlı qardaşları ilə yanaşı, düşmənə qarşı savaşa hazır olduqlarını bildiriblər.

### Bern

İyulun 19-da İsveçrənin Cenevrə şəhərində əsgərlərimizə dəstək və son hərbi təxribatlara etiraz aksiyası keçirilib.

İsveçrədə Ermənistanın səfirliyinin Berndə olmadığına və daimi nümayəndəliyinin Cenevrədə olduğuna görə, bu ölkənin Bern, Sürix və Soloturn kantonlarında yaşayan soydaşlarımız Cenevrəyə yürüşdə iştirak ediblər. Yürüşə 200-ə qədər diaspor nümayəndəsi qatılıb.

Yürüş “Azərbaycanlıların İsveçrədəki Mədəniyyət Mərkəzi”nin rəhbəri Qasım Nəsirov və Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən yaradılmış İsveçrə Konfederasiyasında Azərbaycan Diasporunun Koordinasiya Şurasının əlaqələndiricisi Əkbər Gəncə tərəfindən təşkil olunub.

Aksiya Azərbaycanın Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Sonra erməni silahlı qüvvələrinin Tovuz istiqamətində törətdiyi təxribat zamanı şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Həm diaspor nümayəndələri, həm də yerli sakinlər tərəfindən müxtəlif dillərdə çıxışlar edilib. Şəhər sakinləri ayaq saxlayaraq, tədbir iştirakçılarının tələbləri ilə maraqlanıblar. Eyni zamanda bir Portuqaliya vətəndaşı tədbirdə çıxış edərək, BMT Baş katibi Antonio Quterreşə müraciət edib, dünya ictimaiyyətini Azərbaycan xalqına dəstək olmağa və BMT qətnamələrinin yerinə yetirilməsinə çağırıb.

Diasporumuzun növbəti nailiyyəti olan bu tədbir xalqımızın və xaricdəki Azərbaycan diasporunun birliyini bir daha nümayiş etdirib.

### Cenevrə

İyulun 19-da BMT-nin Cenevrə şəhərindəki qərargahının önündə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Tovuz rayonu istiqamətində növbəti hərbi təxribatlar törətməsi ilə əlaqədar olaraq böyük etiraz aksiyası keçirilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən bildiriblər ki, İsveçrə Azərbaycanlılarının Koordinasiya Şurasının (İAKŞ) və İsveçrə Azərbaycanlılarının Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə gerçəkləşən aksiyada diasporumuzun üzvləri ilə yanaşı, türk cəmiyyətlərinin nümayəndələri də iştirak ediblər.

Tədbirdə İAKŞ-ın əlaqələndiricisi Əkbər Gəncə, Beynəlxalq Demokratlar Birliyinin İsveçrə üzrə sədri Murat Şahin, Beynəlxalq İnsan Haqları və İnkişaf İttifaqı Dərnəyinin sədri Ender Demirtaş və başqaları çıxış ediblər. Çıxışçılar sülhpərvər, beynəlxalq hüquq normalarına hörmətlə yanaşan, bəşəri dəyərlərə böyük önəm verən müstəqil Azərbaycanın hər sınaqdan güclü olaraq çıxacağını, Dağlıq Qarabağın mütləq Ermənistanın işğalından azad olunacağına əminliklərini bildiriblər.

“Türk milləti olaraq azərbaycanlı qardaşlarımızın bu günə qədər olduğu kimi, bundan sonra da yanında olmağa davam edəcəyik. Bunu bir daha BMT binası önündən bütün dünyaya bəyan edirik”, - deyə Murat Şahin söyləyib.

Çıxış edənlər BMT-dən Ermənistanın təxribatlarını və hücumlarını araşdırmaq üçün missiya təşkil etməyə, dünya birliyini işğalçı Ermənistana qarşı tədbirlər görməyə çağırıblar.

Azərbaycan və Türkiyənin dövlət bayraqlarının dalğalandırıldığı, Ermənistanın işğalçı siyasətinə etiraz plakatlarının qaldırıldığı aksiyada “Azərbaycana ədalət!”, “Dağlıq Qarabağ Azərbaycanındır!”, “Ermənistanın işğalına son qoyulsun!” və sair şüarlar səsləndirilib.

### Köln

Almaniyanın Köln şəhərində yaşayan azərbaycanlılar Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi təxribatla əlaqədar etiraz aksiyası keçiriblər.

Dinc şəkildə həyata keçirilən aksiyada yüzlərlə soydaşımız iştirak edib. Şəhərin Breslaur Platz adlanan ərazisində baş tutan aksiyaya Almaniyanın digər şəhərlərindən gələn azərbaycanlılar da qoşulub.

Aksiya iştirakçıları Azərbaycanın ərazi bütövlüyündən, qonşu Ermənistanın işğalçılıq siyasətindən əziyyət çəkməsindən və Qarabağ həqiqətlərindən bəhs edən şüarlar səsləndirərək şəhərin mərkəzi küçələrində yürüş ediblər.

Yürüşdə “Şəhidlər ölməz, vətən bölünməz”, “Qarabağ bizimdir, bizim olacaq”, “Qarabağ Azərbaycandır və nida işarəsi” kimi şüarlar səsləndirilərək Azərbaycan Ordusuna və xalqına dəstək nümayiş etdirilib.

Aksiya iştirakçıları, eyni zamanda, Ermənistan silahlı qüvvələrinin Tovuz rayonunda yaşayış evlərini atəşə tutmasını, mülki şəxsləri hədəfə alaraq öldürməsini Köln sakinlərinin diqqətinə çatdırıblar.

Qeyd edək ki, daha əvvəl etiraz yürüşü ölkənin Düsseldorf şəhərində də keçirilib.

## Ermənilər Azərbaycanın Avstraliyadakı səfirliyinə qarşı vandalizm aktı törədiblər

Avstraliyada yaşayan ermənilər tərəfindən Azərbaycanın bu ölkədəki səfirliyinə qarşı vandalizm aktı törədilib.

AZƏRTAC xəbər verir ki, iyulun 18-də yerli vaxtla səhər 6:50 radələrində bir qrup naməlum şəxs qanunsuz olaraq səfirliyin inzibati binasının ərazisinə daxil olaraq, təxribatçı əməllərə yol verib. Sonradan bu əməllərin “Erməni Gənclər Federasiyası”nın üzvləri tərəfindən törədildiyi üzə çıxıb. Səfirlikdə yaşayan insanların yatmasından istifadə edən qorxaq ermənilər sübh vaxtlarında səfirliyin inzibati ərazisinə daxil olaraq, böhtan və yalan xarakterli bannerlərini yerləşdiriblər.

Azərbaycanın Avstraliyadakı müvəqqəti işlər vəkili Ramil Qurbanov AZƏRTAC-ın xüsusi müxbirinə bildirib ki, təxribatçılar məhz Azərbaycanın xaricdəki diplomatik missiyalarına qarşı son zamanlar ermənilərin hazırladığı təxribatların qarşısının Azərbaycan diasporu tərəfindən qətiyyətlə alındığını nəzərə alaraq, qorxaqcasına sübh saatlarında bu vandal əməli həyata keçirərək qaçıblar.

R.Qurbanov vurğulayıb ki, təxribatçılar sonradan öz hiyləgər və barbar “şücaətlərini” sosial media hesablarında paylaşmış və öz həmmillətlərini Azərbaycan səfirliyinə qarşı təxribatçı əməllərə təşviq etmiş, hətta bəziləri səfirliyin binasına yandırmağa belə çağırmaqdan çəkinməmişlər.

Qeyd olunan təxribatçı əməl barədə Avstraliyanın əlaqədar qurumlarına dərhal məlumat verilib və hazırda hadisə ilə bağlı Avstraliya Federal Polisi tərəfindən araşdırma aparılır.

**Biz birlikdə güclüyük!**

# 120 ölkədən Azərbaycana birmənalı dəstək



*Əvvəli 1-ci səh.*

## Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun qəbul etdiyi kommünikedə Ermənistanın hərbi təxribatı qətiyyətlə pislənildi

### Qoşulmama Hərəkatı Azərbaycanla həmrəy olduğunu bəyan etdi

Əksər beynəlxalq təşkilatlar Ermənistanın son təxribatını açıq şəkildə pisləməsələr də, ümumilikdə dünya birliyindən Azərbaycanı müdafiə edən reaksiyalar özünü çox gözlətmədi. Dost ölkələrdən gələn bəyanatlarlarda Ermənistanın işğalçılıq siyasəti pislənildi, Azərbaycan torpaqlarının azad edilməsi tələb edildi, ölkəmizə dəstək ifadə olundu.

Bu istiqamətdə ən mühüm hadisələrdən biri üzvlərinin sayına görə BMT-dən sonra dünyanın ən böyük siyasi təşkilatı olan Qoşulmama Hərəkatının (QH) Əlaqələndirmə Bürosunun Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan sərhədində hərbi təxribatı ilə bağlı qəbul etdiyi kommünike oldu.

Kommünikedə QH-nin üzv dövlətləri Ermənistan silahlı qüvvələrinin Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə qarşı artilleriya qurğularından istifadə etməklə iki dövlətin beynəlxalq sərhədi boyunca hücumunu qətiyyətlə pisləyib. Bu insidentin bölgədə hərbi gərginliyin artmasına və çoxsaylı itkilərə səbəb olduğu vurğulanıb.

QH Əlaqələndirmə Bürosu Ermənistan və Azərbaycan arasındakı münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həllini dəstəklədiyini bir daha təsdiq edib. Həmçinin təşkilata üzv dövlətlər Azərbaycanın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünə birmənalı dəstəyini bildirərək, respublikamızın öz ərazi bütövlüyünü bərpa etmək məqsədilə göstərdiyi səylərlə həmrəy olduqlarını ifadə ediblər. Beləliklə, QH-nin 120 üzv dövləti tərəfindən Ermənistan silahlı qüvvələrinin iki ölkə sərhədində son hərbi təxribatı və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli və beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan mövqe ortaya qoyuldu.

Xatırladaq ki, bu, Qoşulmama Hərəkatı tərəfindən Azərbaycana qarşı ilk siyasi dəstək deyil. Ölkəmizin bu təşkilatın sıralarına üzv qəbul olunmasından sonra QH-nin yekun sənədlərində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin respublikamızın suverenliyi, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həll edilməsinin və bu kontekstdə BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinin vacibliyi birmənalı şəkildə ifadə olunub. Son olaraq Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının ötən il Bakıda keçirilən Zirvə görüşü həm də Azərbaycanın qlobal siyasi-diplomatik uğuru kimi yadda qalmışdı. Belə ki, həmin Zirvə görüşü Azərbaycanın münaqişə ilə bağlı ədalətli mövqeyini daha da gücləndirdi. Qəbul edilmiş sənədlərdə dövlət və hökumət başçıları BMT Təhlükəsizlik Şurasının qətnamələrinə baxmayaraq, münaqişənin hələ də həll olunmamasından təəssüf hissi keçirdiklərini bildirərək, onun Azərbaycanın suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərin toxunulmazlığı əsasında yoluna qoyulmasının vacibliyini vurğuladılar.

Bütövlükdə, QH Əlaqələndirmə Bürosunun Ermənistan silahlı qüvvələrinin Azərbaycanla sərhəddə törətdiyi hərbi təxribatı ilə bağlı qəbul etdiyi kommünike ölkəmizin ədalətli mövqeyinin beynəlxalq səviyyədə dəstəklənməsi ilə bağlı mühüm siyasi hadisədir. Dünyanın BMT-dən sonra ikinci ən böyük təşkilatının bu sənədi göstərir ki, Ermənistanın beynəlxalq müstəvidə sıxışdırılması və erməni yalanlarının ifşası istiqamətində Azərbaycanın yürütdüyü siyasət müsbət nəticələrini verməkdədir.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Hücum diplomatiyasının yeni mərhələsi başlayır

*Əvvəli 1-ci səh.*

Hazırda dünyada gedən mürəkkəb iqtisadi problemlər fonunda Azərbaycanda reallaşan islahatlar əlbəttə ki, ilk növbədə, dövlət idarəçiliyinin təkmilləşməsi deməkdir.

### Xarici siyasətin dəyişməz istiqaməti...

Ötən həftə ölkənin xarici siyasət idarəsinə yeni rəhbər təyin edən cənab İlham Əliyev həm yeni nazir qarşısında xarici siyasət sahəsində, kadr məsələsində ciddi tələblər qoydu, həm də bəyan etdi ki, hücum diplomatiyası dəyişməz olaraq qalır.

Əlbəttə ki, bu diplomatiyanın daha da şaxələndirilməsi, gücləndirilməsi üçün ölkənin xarici siyasət idarəsinin, Azərbaycanı xaricdə təmsil edən səfir və konsulların üzərinə böyük vəzifə düşür.

Ancaq son vaxtlar xaricdəki bəzi diplomatlarımızın bu istiqamətdə həyata keçirdikləri siyasət ölkə Prezidentini ciddi narahat edir. Belə ki, Azərbaycanın xaricdə fəaliyyət göstərən bəzi diplomatik nümayəndəlikləri ölkəmizə qarşı aparılan çirkin kampaniyalara, qarayaxmalara, iftiralara diqqət yetirmir, yalnız yaşadıqları ölkənin maraqlarını qorumağa kifayətlənirlər. Yəni xaricdəki bəzi diplomatlarımız fəaliyyət göstərdikləri ölkələrin elçilərinə çevrilirlər.

Bu da, əlbəttə ki, milli maraqlarımızın hər zaman üstün tutulmaqla həyata keçirilən dövlətin uğurlu xarici siyasətinə tamamilə ziddir. Ona görə də Prezident vurğuladı ki, diplomatlar Azərbaycana əleyhinə aparılan bütün kampaniyalara qarşı fəaliyyət göstərməlidirlər və bunun üçün də ölkəmizə peşəkar, milli ruhda, milli dəyərlərə bağlı, maraqlarımızı müdafiə edə bilən diplomatlar lazımdır. Ona görə də Azərbaycanın xarici ölkələrdəki nümayəndəliklərində görülən işlər ciddi təhlil olunmalıdır, səfirliklərin işinin səmərəliliyi əmsalı müəyyən edilməlidir.

### Diplomatlara ciddi tapşırıq verildi

Xaricdəki diplomatlara göstəriş və təlimatlarını verən Prezident bəyan etdi ki, xarici nümayəndəliklərimiz ölkəmizin maraqlarını tam təmin etməli, səfirliklərimiz xaricdə yaşayan, fəaliyyət göstərən Azərbaycan icmaları ilə sıx əlaqədə olmalıdırlar: "Onlar diaspor təşkilatlarının koordinasiya işinə öz töhfəsini verməlidir ki, həm diaspor təşkilatları, həm səfirliklər Azərbaycanın maraqlarını təmin etsinlər və Azərbaycan reallıqlarını çatdırsınlar. Xarici kütləvi informasiya vasitələri ilə sıx təmaslar olmalıdır. Azərbaycan haqqında bəzi hallarda gedən yanlış məlumata dərhal adekvat reaksiya verilməlidir, formal yox".

Dövlət başçısı Azərbaycana qarşı aparılan çirkin kampaniyaların səbəblərini də göstərdi və bildirdi ki, xalq bu məkrli olayların mənbəyinin, səbəbinin nə olduğunu yaxşı bilir. İlk növbədə bunun səbəbi Azərbaycanın tam müstəqil, ləyaqətli siyasət yürütməsidir.

Məhz bu siyasət Azərbaycanı dünyada etibarlı və strateji tərəfdaşa çevirib. Son 17 ildə Prezident İlham Əliyevin yürütdüyü tam müstəqil siyasətlə Azərbaycan beynəlxalq təşkilatlarda söz sahibi kimi qəbul edilir. Azərbaycanın xarici siyasətinin uğurları kifayət qədərdir. Təkcə ölkəmizin hazırda 120 daimi üzvü olan Qoşulmama Hərəkatına və Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına sədrlik etməsini göstərmək yetərlidir. Bütün bu uğurlar cənab İlham Əliyevin xarici diplomatiyasının təntənəsidir.

Ancaq dövlət başçısı hesab edir ki, ölkəmizə qarşı aparılan çirkin kampaniyaya diplomatlarımızın adekvat cavab verməməsi antiazərbaycançı qüvvələrin xeyrinə işləyir. Bu səbəbdən də diplomatlarımız tərəfindən Azərbaycana qarşı olan istənilən təxribata dərhal adekvat cavab verilməli və təxribatçılar həmin ölkənin qanunları çərçivəsində cəzalandırılmalıdırlar.

### Xarici siyasətin əsas prioritetləri

Prezident, həmçinin Azərbaycanın xarici siyasətinin əsas prioritetlərinə də diqqət çəkdi və ölkəmizin qonşularla, digər dövlətlərlə, eləcə də beynəlxalq təşkilatlarla mövcud əlaqələrini dəyərləndirdi.

İlk prioritet işğalçı Ermənistan istisna olmaqla, qonşu ölkələrlə münasibətlərin və bunun çox sağlam zəmində qurulmasıdır. Eləcə də qonşu ölkələr tərəfindən də Azərbaycana qarşı olan siyasət çox müsbətdir. Çünki Azərbaycan bu siyasəti dostluq, mehribançılıq prinsipləri əsasında qurub.

Bir çox ölkələrlə strateji tərəfdaşlığı olan Azərbaycanın dünyanın nəhəng dövlətlərindən Amerika Birləşmiş Ştatları ilə də münasibətləri çox böyük əhəmiyyət daşıyır və bu münasibətlərin böyük tarixi var. Həmçinin Azərbaycanın strateji investorlarından biri Böyük Britaniyadır. Bu ölkə ilə Azərbaycan arasında çox sıx tərəfdaşlıq münasibətləri mövcuddur.

Beynəlxalq təşkilatlara gəlincə, ölkəmizin İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Qoşulmama Hərəkatı və Avropa İttifaqı ilə əlaqələri də çox möhkəm zəmində qurulub. Aİ-yə üzv doqquz ölkə ilə Azərbaycan strateji tərəfdaşlıq haqqında sənədlər imzalayıb. Hazırda Avropa İttifaqı ilə Azərbaycan arasında yeni saziş üzərində iş aparılır. Sazişin böyük hissəsi razılaşdırılıb.

Bu əlaqələrin daha da möhkəmləndirilməsi ilə bağlı ciddi tapşırıqlarını verən dövlət başçısı dedi ki, xarici siyasət idarəsinin fəaliyyətinin ən əsas hissəsi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə istiqamətləndiriləcək. Çünki bu, milli məsələdir və son illər görülmüş tədbirlər nəticəsində bütün beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı öz mövqeyini ortaya qoyublar. Əgər münaqişə getdiyi dövrdə BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul edibsə, ondan sonrakı dövrdə bütün digər təşkilatlar da oxşar qərar və qətnamələr qəbul ediblər.

Ermənistanın Tovuz rayonunda sərhəd xətti istiqamətindəki son təxribatına da beynəlxalq təşkilatlar, xüsusən də Qoşulmama Hərəkatı tərəfindən etiraz bəyanatının qəbul edilməsi, bir daha Azərbaycanın haqlı mövqeyinin təsdiqlənməsi idi.

Bir sözlə, Azərbaycanın xarici siyasətinin əsas istiqamətləri ilə bağlı ciddi tapşırıq və göstərişlərini verən Prezident əminliklə vurğuladı ki, yürüdülən diplomatiya siyasəti ölkəmizin maraqlarını tam təmin etmək üçün öz sözünü deyəcək.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Sərtləşdirilmiş karantin rejimi müsbət nəticəsini verir

## Ölkədə koronavirusa yoluxma sabitləşib, əvvəlki mənfi tendensiya yoxdur

Yeni növ koronavirus, COVID-19 yeddi aydır planetimizdə tüğyan edir. Bu müddət ərzində dünyanın, bəşəriyyətin yaşamı, həyat tərzi, vərdişləri dəyişdi. Müasir dövrün insanı bu zamana kimi rastlaşmadığı durumla qarşı-qarşıya qaldı. Dünyanın super gücləri, inkişaf etmiş ölkələri, müasir tibb aləmi, ən yüksək texnologiyalar, avadanlıqlar, nanotexnologiya belə, koronavirusun qarşısını ala bilmədi. Beləliklə, bütün dünya bu kiçicik mikroorqanizm qarşısında aciz qalıb.

Acı da olsa etiraf edək ki, dünyada koronavirusla bağlı vəziyyət dözülməz ssenari üzrə inkişaf edir. Yoluxmaların və ölümlərin sayı hər gün artır. Hətta bəzi ölkələrdə epidemiyanın artıq ikinci dalğasının başlandığı elan olunub. Dünya dövlətləri yarım ildən çoxdur bütün səylərini məhz COVID-19 infeksiyası ilə mübarizəyə və profilaktiki tədbirlərə yönəldib.

Azərbaycan bu gün dünyanı bürümüş pandemiyaya qarşı mübarizədə ən ciddi tədbirlər görmüş ölkələr sırasında yer alır. Virusun dünyaya yayılmağa başladığı ilk vaxtdan etibarən dövlətimiz ciddi qabaqlayıcı addımlar atır. Prezident İlham Əliyev vətəndaşların sağlamlığını qorumağa yönəlmiş məqsədyönlü strategiya irəli sürüb və bu, beynəlxalq qurumlar tərəfindən də təqdir edilməkdədir. Ölkədə virusun aşkarlandığı ilk günlərdən qəbul edilən qərarlar və karantin rejiminin tətbiqi nəticəsində vəziyyəti nəzarət altında saxlamaq mümkün olub. Pandemiyanın dalğalarının yeni yayılmağa başladığı dönəmlərdə Azərbaycan koronavirusa qarşı mübarizəyə qoşulmaqla ortaya çox ciddi nəticələr, nümunələr qoya bildi. Lakin bu müsbət nəticələr məhdudiyyətlər aradan qaldırıldıqdan sonra əhalinin bir qisminin laqeydliyi, məsuliyyətsizliyi, karantin qaydalarına əməl etməməsi nəticəsində mənfiyə doğru dəyişdi. Bu da əhali arasında virusa yoluxmada ciddi artımla müşahidə olundu. Nəticədə koronavirus infeksiyasının yayılma sürətinin azaldılması, habelə onun törədə biləcəyi fəsadların minimuma endirilməsi məqsədilə Nazirlər Kabineti yanında Operativ Qərargah karantin rejiminin yenidən sərtləşdirilməsi ilə bağlı qərar qəbul etdi.

Mərhələli şəkildə davam edən sərt karantin rejiminin 14 rayon və şəhərdə avqustun 5-nə qədər uzadılması sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamaq, əhalinin sağlamlığı və təhlükəsizliyinin təmin etmək baxımından vacibdir.

Hökumət yoluxmanın sürətini və sayını azaltmaq üçün bu gün üçün məqbul olan məhdudiyyətləri tətbiq edir.

Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatlarından da görünür ki, koronavirusa yoluxma sabitləşib, əvvəlki mənfi tendensiya yoxdur. Sərt karantin və məhdudiyyətlərin tətbiqi artıq öz təsirini göstərir. Əldə olunan müsbət dinamika nəticəsində virusa yoluxma hallarının ikiqat artmasının qarşısı alınıb, gündəlik yoluxma sayı sabitləşib. Bir neçə gündür açıqlanan statistika isə olduqca sevindiricidir. Koronavirusa gündəlik yoluxma halları 500-dən aşağı düşüb. İyulun 19-da isə virusa təsdiqlənmiş yoluxma sayı 400-dən aşağı düşərək 388 olub. Son günlər xəstəlikdən sağalanların sayı yoluxanların sayını ötüb. Bu da xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilən xəstələrin sayının azalması deməkdir.

Son günlər qeydə alınan müsbət dəyişikliklər atılan addımların düzgün olduğunu göstərir. Nəzərə alsaq ki, artıq yoluxma ilə sağalma arasında müsbət mənada fərq var, deməli, tətbiq olunan tədbirlərin özünü göstərməsi şübhəsizdir. Ötən iki həftə ərzində sərtləşdirilmiş karantin rejimi səmərəli nəticəsini verdiyindən bu dinamikanın saxlanılması əsas şərtdir. Sərt karantin rejiminin yenidən uzadılması da məhz pandemiyanın təsirinin daha da zəifləməsinə hesablanıb.

Müsbət tendensiyanin yaranmasının əsas səbəbi əhalinin böyük qisminin qaydalara riayət etməsidir. Polislərin gücləndirilmiş iş rejiminə keçməsi, qapalı və ictimai məkanlarda polis nəzarətinin gücləndirilməsi və vətəndaş məsuliyyəti pandemiyanın təsirlərinin azaldılmasına öz töhfəsini verir. Sevindirici haldır ki, əvvəlki dövrdən fərqli olaraq indi əhalinin böyük əksəriyyəti maskadan, dezinfeksiyaedici məhlullardan daha çox istifadə edir.

Amma təəssüf ki, hələ də maskadan düzgün istifadə etməyənlər var. Bəzən taxılan maskanı burundan aşağıda saxlayırlar. Bəli, hava istidir, nəfəs almaq çətindir, amma nəzərə almaq lazımdır ki, maska burundan aşağıda saxlanılırsa, onda onu taxmağın heç bir əhəmiyyəti qalmır. Maskanı çənəyə endirmək və ona tez-tez əl vurmaq da problem yaradan haldır. Çünki maskaya tez-tez əl vurub toxunanda çöl hissədə virus varsa, yayılır. Ona görə də özümüzün və ətrafdakıların sağlamlığı naminə maskadan düzgün istifadə etmək, sosial məsafə saxlamaq vacibdir. Hazırda dünyanı bürüyən koronavirusa qarşı bundan effektli qoruyucu üsul yoxdur.

TƏBİB-in Tibbi Xidmətlər Departamentinin rəhbəri Firəngiz Əliyevanın sözlərinə görə, karantinin tətbiqində başlıca hədəf virusun yoluxma zəncirini qırmaqdır. Çünki əhalinin 20 faizi virusa yoluxarsa, onun qarşısında dayanmaq qeyri-mümkün olur.

Odur ki, pandemiyaya qarşı effektiv mübarizə aparmalı, xalq olaraq birlikdə addımlamalıyıq. Bu dövrü səbirlə, təmkinlə keçirməli, qayda və qanunlara mütləq riayət etməli, maska taxıb, sosial məsafəni gözləməliyik. Nə qədər səbirli olub bu dövrü təmkinlə başa vursaq, karantin şəraitindən də bir o qədər tez çıxarıq.

***Xəyalə MURADLI, "Azərbaycan"***

# Pandemiyaya qarşı təxirəsalınmaz tədbirlərin icrası davam etdirilir

## Sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamaq üçün sərt karantin rejiminin tətbiqi vacibdir

Yarım ildən çoxdur ki, planetimizdə tüğyan edən koronavirus - COVID-19 təhlükəsi bitmir. Getdikcə yoluxma və ölüm sayını artıran pandemiya dünyanı çıxılmaz vəziyyətə salıb. Ölkələrdə sərtləşdirilmiş karantin dövründə yoluxmalarda, ölüm sayında müəyyən səngimələr olsa da, yumşaldılma ərəfəsində virus yenidən alovlanmağa başlayır, vahiməli bir şəkildə insanların sağlamlığını təhlükə altına alır. Və göstərir ki, o, yox olmayıb və ən kiçik fürsətdən istifadə edərək, cilddən-cildə girərək, mutasiya edərək insanlığı təhdid edir. Təhlükəli infeksiya dönüb-dolaşıb birdən peyda olur, başlayıb yox olduğu ünvanlarda yenidən alovlanır.

150 günə yaxın bir müddətdən sonra iyulun 15-də Çinin Urumçi şəhərində COVID-19 virusuna daxili ötürülmə yolu ilə ilk yoluxma halı qeydə alınıb. Növbəti günlərdə isə yoluxma halları çoxaldığı üçün şəhər rəhbərliyi virusun yayılmasını nəzarətdə saxlamaq üçün yenidən sərt karantin rejiminin tətbiqinə başlayıb.

Bəli, təəssüf ki, dünyada pandemiya vəziyyəti hələ də davam etdiyindən və COVID-19 infeksiyasının müalicəsi üçün zəruri dərman preparatı, eyni zamanda, bu xəstəliyə qarşı peyvənd tapılmadığından hazırda virusla mübarizənin ən effektiv yolu karantin rejimidir. Bu da reallıqdır ki, məhdudiyyətləri aradan qaldıran ölkələrin sayı artdıqca, COVID-19 yenidən sürətlə yoluxdurma sayını artırır. Hazırda vəziyyət ilin əvvəli ilə müqayisədə heç də yaxşı deyil...

### Vəziyyət təhlil edilərək uyğun tədbirlərin görülməsinə start verilib

Qlobal təhlükə Azərbaycandan da yan keçməyib və ölkəmizdə virusun üzə çıxdığı ilk zamandan etibarən ona qarşı mümkün effektiv və zəruri tədbirlər ardıcıllıqla həyata keçirilir. Dövlətimiz vətəndaşların layiqli həyat şəraitinin təmin edilməsi, onların təhlükəsizliyinin etibarlı müdafiəsi və hazırkı qlobal problemin təsirindən qorunması üçün bütün imkanlardan istifadə edir. Mövcud sanitar-epidemioloji vəziyyətə uyğun lazımi addımlar atılır. Buna görədir ki, ölkəmiz koronavirusa qarşı effektiv mübarizə aparan və minimum itkilərlə üzləşən ölkələr sırasındadır. Ümumdünya Səhiyyə Təşkilatı da dəfələrlə Azərbaycanı bu xüsusda dünya ölkələrinə nümunə göstərib.

Hazırda da infeksiyanın yoluxma dinamikası ilə bağlı ölkədəki vəziyyət təhlil edilərək uyğun tədbirlərin görülməsinə start verilib.

Bakı, Cəlilabad, Gəncə, Masallı, Mingəçevir, Sumqayıt, Yevlax şəhərlərində və Abşeron, Bərdə, Goranboy, Göygöl, Xaçmaz, Siyəzən və Şəki rayonlarında mövcud sanitar-epidemioloji vəziyyətə uyğun olaraq 5 avqustadək sərtləşdirilmiş xüsusi karantin rejimi davam edəcək. Həmçinin xüsusi karantin rejiminin sərtləşdirildiyi şəhər və rayonlarda həftəsonları bütün ictimai nəqliyyatın hərəkəti dayandırılacaq.

### Yumşaldılmalar da mövcuddur

Eyni zamanda karantin rejiminin şərtlərində müəyyən yumşaldılmalar da var. Xüsusi karantin rejiminin sərtləşdirildiyi şəhər və rayonlarda ötən gündən etibarən masaj və hamam xidməti istisna olmaqla, bərbərxana, gözəllik salonlarının fəaliyyətinə və kosmetik xidmətlərin göstərilməsinə icazə verilib. Eyni zamanda şəxslərin yaşayış yerini və olduğu yeri tərk etmək üçün SMS icazənin müddəti 2 saatdan 3 saatadək artırılıb.

Operativ Qərargah tərəfindən şəxslər arasında COVID-19 infeksiyasına yoluxma dinamikası nəzərə alınmaqla Lənkəran şəhəri və Samux rayonunda 20 iyuldan etibarən sərtləşdirilmiş xüsusi karantin rejimi tətbiq olunmayıb.

Operativ Qərargah mövcud sanitar-epidemioloji vəziyyətdən irəli gələrək bir daha hamını şəxsi gigiyena, eləcə də tibbi-profilaktik qaydalara əməl etməyə, özünü və yaxınlarını virusa yoluxmadan maksimum qorumaq üçün preventiv tədbirlərin şərtlərinə əməl etməyə çağırır.

Vətəndaşlar bilməlidirlər ki, sərt karantin rejimi sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamaq baxımından vacibdir. Əhalinin sağlamlığı və təhlükəsizliyinin təmin edilməsi hər zaman olduğu kimi, bu çətin günlərdə də Azərbaycan dövləti üçün ən mühüm və prioritet vəzifədir. Qəbul edilən bütün qərarlar da məhz buna hesablanıb.

Son günlər əhali arasında infeksiyaya yoluxma dinamikasında azalmaların müşahidə edilməsi, sağalanların sayının xeyli artması da qabaqlayıcı tədbirlər sayəsində əldə olunub. Yaddan çıxarmaq olmaz ki, mayda karantinin yumşaldılması və bir çox hallarda pandemiya şərtlərinə əməl edilməməsi qısa zamanda infeksiyaya yoluxmanı üçrəqəmli həddə daşımışdı. Bu isə həkimlərin və digər tibb işçilərinin gərgin şəraitdə işləməsinə səbəb olurdu. Həmçinin bu xəstəxanalarda çarpayı, süni nəfəs aparatlarının çatışmazlığına və daha neçə arzuolunmaz nəticələrə yol açırdı.

Təbii ki, ölkəmizdə zamanında görülən çevik və təsirli tədbirlər bu mənfi ssenarilərə yol vermədi, hazırda da COVID-19 infeksiyası nəzarət altındadır.

### Sayıqlığı itirmək olmaz

Amma sayıqlığı itirməyin, arxayınlaşmağın vaxtı deyil. Həm də o baxımdan ki, biz təkcə koronavirusla yox, onun kimi təhlükəli və insanlıq qənimi olan başqa bir düşmənlə də mübarizə aparırıq. Son dönəmdə Ermənistanın dövlət sərhədlərimizi pozmaq cəhdi, Tovuz istiqamətində təxribata əl atması, ölkəmizdə pandemiya ilə mübarizə aparılan bir zamanda qarışıqlıq yaratmaq istəməsi də diqqətdən kənarda qala bilməz.

COVID-19 pandemiyasının hələ məhdudlaşdırılmadığı, yoluxma hallarının yüksək olduğu bir vaxtda aksiyaların keçirilməsi, minlərlə insanın bu aksiyalara qoşulması virusun daha geniş yayılması və insanların həyatını təhlükə qarşısına qoyması üçün əlverişli şərait yaratdı. Eyni zamanda vətəndaşların həlak olmuş hərbçilərimizin yaşadığı ünvanlara kütləvi şəkildə toplaşması və onların yaxınlarını ziyarət etməsi, dəfn mərasimlərində çoxlu insanların bir yerə toplanması virusun yayım sürətini daha da artırır. Təəssüf ki, bir müddət sonra biz bu kütləviliyin acı nəticələrini görə bilərik.

Bütün bunlara yol verməmək üçün insanlarımız aksiyalardan, ziyarətlərdən, dəfn mərasimlərində kütləvi iştirakdan çəkinməlidirlər.

### Hər iki qəddar düşmənin ölüm saçan nəfəsini boğmağın məqamıdır...

Yenidən eyni hadisələri təkrarlamaq olmaz. Virus hər yerdədir və yox olmayıb. Atdığımız hər bir addımda məsuliyyətli davranaraq özümüzü, doğmalarımızı, xalqımızı qorumalıyıq. Rəşadətli ordumuz, polad iradəli oğullarımız əzmlə bizi birinci düşmənimiz Ermənistandan qoruyur. Bütün təxribatların qarşısını alıb cəza tədbirləri görərək dərhal yerində otuzdurur. Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə qalib ordumuzun ana yurdumuz Qarabağda üçrəngli bayrağımızı dalğalandıracağı o müqəddəs günlərə də lap az qalıb...

İndi vətəndaş həmrəyliyi göstərərək, daha diqqətli və sərvaxt davranaraq koronavirusla mübarizəyə töhfə verməyin zamanıdır. İndi düşmənlərə qarşı səfərbər olmağın, birlik nümayiş etdirib hər iki qəddar düşmənin ölümsaçan nəfəsini boğmağın məqamıdır...

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

## Azərbaycan Milli Mətbuatı – 145

Koronavirus pandemiyası ilə mübarizənin cəmiyyətimiz üçün ən aktual və ümdə məsələ olduğu bu günlərdə bir sərəncamın sevinci əli qələm tutan hər kəsin ürəyini "dağa döndərdi": Mətbuatın dostu bu çətin günlərdə dostluğa növbəti dəfə sadiqlik və dəyər nümayiş etdirdi. Prezident cənab İlham Əliyev 2020-ci il 30 iyun tarixli "Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında" sərəncamı ilə Azərbaycan milli mətbuatının 145-ci ildönümü kimi mühüm ictimai-siyasi çalara yubiley hadisəsinin arxa planda qalmasına, unudulmasına yol vermədi.




# Mətbuata əsl dost qayğısı

Sərəncam milli mətbuatımızın tarixi təkamül və inkişaf yoluna dərin ehtiram nümunəsi olmaqla yanaşı, medianın müasir ictimai həyatdakı yeri və roluna, funksiyasına verilən yüksək qiymətdir.

Pandemiya ilə mücadilənin milli məsələyə çevrildiyi bir mərhələyə təsadüf edən bu sərəncam həm də onu göstərir ki, ölkə rəhbəri ötən illərdə formalaşmış uğurlu ənənələrin davamlı olmasını vacib sayır. Eyni zamanda milli mətbuat ənənələrinin qorunması və təbliği vacibliyi, kütləvi informasiya vasitələrinin ölkəmizin ictimai-siyasi həyatındakı yeri və müasir cəmiyyət quruculuğu prosesindəki rolu ciddilikdə nəzərə alınır.

"Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında" sərəncamda irs-varislik əlaqələri qorunmaqla, mətbuatın keçdiyi tarixi inkişaf yolunun ayrı-ayrı mərhələlərinə də nəzər salınır. Sərəncamın preambula hissəsində deyildiyi kimi, "145 il əvvəl - 1875-ci il iyulun 22-də görkəmli ziyalı və maarifçi-publisist Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlamış "Əkinçi" qəzeti milli mətbuatımızın ilk nümunəsi və həmin dövr Azərbaycanın ictimai-siyasi həyatının mühüm hadisəsi kimi tarixə düşmüşdür. Sonrakı illərdə çoxsaylı nəşrlərlə zənginləşən milli mətbuatımız Azərbaycan ədəbi dilinin və maarifçilik hərəkatının inkişafına əhəmiyyətli töhfələr vermiş, milli özünüdərk və istiqlal məfkurəsinin formalaşmasında, qabaqcıl ideyaların təbliğində böyük xidmətlər göstərmişdir".

Bu gün əminliklə deyə bilərik ki, "Əkinçi" qəzeti ilə əsası qoyulmuş milli mətbuatın tarixi təkamülü müxtəlif dövrlərdə fərqli inkişaf dinamikası ilə yaddaqalan olub. Hələ əsr yarım əvvəl elan edilmiş ümdə meyarlar - maarifçilik, müasirlik, milli məfkurə, bəşəri dəyərlərin milli ənənələrlə üzvi vəhdəti, ədəbi dilin qorunması, hadisələrin obyektiv işıqlandırılması kimi prinsiplər mətbuatın gələcək inkişafı üçün bir növ mayaka çevrilib. İctimai təfəkkürün inkişafında "Əkinçi" qəzetinin işığına toplanmış böyük mütəfəkkirlərin - Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani və başqa ziyalıların da xidmətləri bu gün ehtiramla xatırlanır. Maarifçi və demokratik ideyaları təbliğ edərək ictimai fikrin inkişafına təsir göstərən bu görkəmli şəxsiyyətlər bu gün həm də dövrünün görkəmli yazarları, ədibləri kimi tanınırlar.

Sonrakı mərhələdə - Bakının sənaye şəhəri kimi inkişafı da ölkədə mətbuatın inkişafına müsbət təsirini göstərib - bu dövrdə yaranmış "Kaspi", "Kəşkül", "Şərqi-rus", "Həyat", "Füyüzat", "Təzə həyat", "Açıq söz", "Dirilik" qəzetləri, habelə "Molla Nəsrəddin" kimi qəzet və jurnallar Azərbaycanda azad sözün, mətbuat ənənələrinin formalaşmasına, azadlıq, müstəqillik ideyalarının ictimai şüurda möhkəmlənməsinə sanballı töhfələr veriblər.

Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq mövcudluğu dövrü isə bir sıra mühüm dövlətçilik təsisatlarının yaranması ilə yanaşı, həm də mətbuatın inkişafının dəstəklənməsi tədbirləri ilə sıx bağlıdır. AXC hökuməti tərəfindən "Mətbuat haqqında Nizamnamə"nin qəbulu söz, mətbuat, sərbəst düşüncə azadlıqlarının inkişafına yeni təkan verib. Eyni zamanda yeni müstəqil ölkə ətrafındakı informasiya blokadasını aradan qaldırmağa, onu dünya miqyasında tanıtmağa, eləcə də xalqı məlumatlandırmağa imkan yaradıb. Bakının erməni-daşnak birləşmələrindən azad edildiyi tarixi gündə - sentyabrın 15-də Gəncə şəhərində "Azərbaycan" qəzetinin nəşrə başlaması ilə yeni dövlət quruculuğunu səhifələrində geniş təbliğ edən rəsmi təbliğat orqanının əsası qoyulub. İlk gündən cümhuriyyətin ictimai-siyasi, iqtisadi həyatında baş verən prosesləri işıqlandıran "Azərbaycan" qəzeti qısa müddətdə həm də milli problemlərin səsləndirildiyi möhtəşəm tribunaya çevrilməyi bacarıb.

Cümhuriyyətin obyektiv səbəblərdən süqutundan və Bakıda bolşevik hökumətinin qurulmasından sonra respublikada müstəqil və demokratik mətbuatın fəaliyyətinə son qoyulub. Xalq Komissarlığı Soveti 27 oktyabr 1920-ci il tarixli "Mətbuat haqqında" Dekretinə əsasən, cəmi 2 ay ərzində 100-dək qəzet bağlanıb. Sonrakı illərdə senzura daha da möhkəmlənib, mətbuat ideoloji-siyasi rupora, hakim partiyanın maraqlarının təbliğatçısına çevrilib. Ədəbiyyat və nəşriyyat üzərində senzura rolunu oynayan "Qlavlit"ə 1933-dən həm də mətbuatda hərbi və dövlət sirlərini qorumaq səlahiyyətləri verilib.

Buna baxmayaraq, XX əsrin 70 ildən artıq dövrü sovet mətbuatında müəyyən inkişafı, peşəkar jurnalistika ənənələrinin formalaşmasını da təmin edib. Bu illərdə qəzet və jurnalların şəbəkəsi genişlənib, mətbuat kütləvi informasiya vasitələrinin yeni növləri hesabına zənginləşib. 70-80-cı illərdə - Ümummilli Lider Heydər Əliyevin sovet Azərbaycanına rəhbərliyi illərində mətbuata basqılar nisbətən azalıb, qəzet və jurnalların müstəqilliyi mümkün səviyyədə təmin olunub.

Həmin illərdə Azərbaycana rəhbərlik edən gənc və qətiyyətli rəhbər Heydər Əliyevin cəmiyyətdəki problem və nöqsanları şəxsən bəyan etməsi mətbuatın azad tribuna kimi cəmiyyətdə rolu və mövqeyini daha da gücləndirirdi. 1981-ci il dekabrın 19-da "Literaturnaya qazeta"da dərc olunmuş "Qoy, ədalət zəfər çalsın!" başlıqlı müsahibəsində Ulu Öndər çox ciddi problemlərə toxunaraq onların aradan qaldırılmasında mətbuatın da rolunu önə çəkirdi.

2000-ci ilin 22 iyulunda milli mətbuatın 125 illik yubileyi ilə bağlı keçirimiş təntənəli mərasimdə Ümummilli Lider bununla bağlı deyirdi: *"Xatirimdədir, o vaxt Andropov SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin sədri, həm də Siyasi Büronun üzvü idi. O, bir neçə gündən sonra mənə telefon etdi. Dedi ki, sənin bu müsahibən böyük bir sensasiya yaradıbdır. Soruşdum ki, nə mənada? Cavab verdi ki, müsbət də var, mənfi də var. Soruşuram ki, nəyi müsbətdir, nəyi mənfidir? Deyir, müsbət odur ki, insanlar bizim cəmiyyətdəki bu yaraları görürlər və sevinirlər ki, kimsə cəsarət edib bunları açıq deyir. Özü də bunu aşağıda yox, ən yüksək vəzifədə çalışan bir adam deyir. Amma bunun əleyhinə olanlar da var. Soruşuram ki, niyə? Bildirdi ki, çünki onlar bunun açılmağını istəmirlər. O vaxt bir çox belə yazılar olub. İstəsəniz, axtarın, tapın, oxuyun".*

Ötən əsrin 80-ci illərinin sonlarına doğru keçmiş SSRİ-nin tənəzzülə uğraması prosesinin sürətlənməsi, "aşkarlıq", "yenidənqurma" tezislərinin ortaya atılması bütün postsovet respublikalarında olduğu kimi, Azərbaycanda da mətbuatın müstəqil, azad söz uğrunda mübarizəsinə təkan verib. Ermənistanın Azərbaycana təcavüzü, milli-azadlıq hərəkatının gedişi, SSRİ rəhbərliyinin respublikamıza laqeyd münasibəti, 20 yanvar faciəsi ilə bağlı açıq, cəsarətli yazılar yeni yaranan qəzetlərdə işıq üzü görməyə başlayıb.

Dövlət müstəqilliyini bərpa edən Azərbaycanda müasir kütləvi informasiya vasitələrinin formalaşması və inkişafı isə əsasən 1993-cü ilin iyun ayından sonrakı dövrə təsadüf edir. Bu mərhələdən etibarən Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi mütərəqqi islahatlar nəticəsində ölkədə söz və mətbuat azadlıqlarına Konstitusiya təminatı yaradılıb, demokratik ruhlu media qanunvericiliyi qəbul olunub. 1998-ci il 6 avqust tarixdə imzalanmış "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman əsasında 1966-cı ildən mövcud olan və senzura fəaliyyəti həyata keçirən Nazirlər Kabineti yanında Dövlət Sirlərini Mühafizə edən Baş İdarənin ləğvi Azərbaycan milli mətbuatını ilk dəfə olaraq hökumət nəzarətindən tamamilə azad edib.

2000-ci ildə milli mətbuatın 125 illik yubileyi ilə bağlı sərəncamın imzalanması və təntənəli yubiley tədbirinin təşkili, onlarla jurnalistin mükafatlandırılması da Ulu Öndərin jurnalistikamız üçün böyük xidmətlərindən biridir. Bu gün əminliklə deyə bilərik ki, mediaya qayğı siyasəti son 17 ildə inamla davam etdirilir. Bu gün Azərbaycan cəmiyyəti üzrə genişzolaqlı internet istifadəçilərinin 80 faizə yüksəlməsi, sosial şəbəkələrin açıqlığı söz və mətbuat azadlığının ən yüksək səviyyədə təminatının bariz göstəricisidir.

Ötən 17 ildə mətbuatımızın 130, 135 və 140 illik yubileylərinin təşkili, "Əməkdar jurnalist" fəxri adının bərpası, jurnalistlərin mükafatlandırılmasının xoş ənənəyə çevrilməsi, KİV əməkdaşlarının mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində atılan addımlar mediaya dövlət qayğısının əyani təzahürləridir. Medianın üzləşdiyi bir sıra problemlər nəzərə alınmaqla, mətbuata davamlı diqqət və qayğı göstərilir. Mətbuatın maddi-texniki və maliyyə bazasının möhkəmləndirilməsi məqsədilə 2006-cı il fevralın 8-də imzalanmış "Qəzetlərin Azərbaycan nəşriyyatına olan borclarının ödənilməsi barədə" sərəncama əsasən qəzetlərin "Azərbaycan" nəşriyyatına olan 450 min ABŞ dolları civarında borcu dövlət büdcəsindən ödənilib.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2008-ci il 31 iyul tarixli "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında", eləcə də "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi haqqında" sərəncamları, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması keyfiyyətcə yeni mərhələdə medianın ölkəmizin inkişaf potensialından səmərəli yararlanmaq imkanları yaradıb.

Bu diqqət və qayğının müqabilində dövlətin və ümumən cəmiyyətin media ilə bağlı gözləntiləri kifayət qədər sadədir: obyektivlik, peşə etikasına və qanunlara hörmət, vətənpərvərlik və milli mənafelərin nəzərə alınması, milli-mənəvi dəyərlərə sədaqət! Əlbəttə, bu prinsiplərə riayət edən çoxsaylı jurnalistlərlə yanaşı, şəxsi maraqları naminə media adına xələl gətirən cızmaqaraçıların da az olmadığını etiraf etməliyik. İnternet mediasının sürətli inkişafı, yeni xəbər saytlarının, portalların fəaliyyətə başlaması nə qədər sevindirici hal olsa da, onların bir çoxunun fəaliyyətində məsuliyyətsizlik, hərcmərclik halları baş alıb gedir. İnsanların şərəf və ləyaqətini alçaldan, yoxlanılmamış məlumatlara geniş rast gəlinir. Bir vaxtlar yazılı medianı "reket jurnalistikanın tribunası"na çevirmək istəyənlər indi də yeni-yeni internet saytları yaradır, xoşagəlməz əməllərini davam etdirirlər. Ayrı-ayrı xəbərlərə verilən "şərhlər"də insanların qanunla qorunan mənafelərinə toxunan, şər-böhtan xarakterli yazılar baş alıb gedir.

Digər mühüm məqam da bundan ibarətdir ki, media ciddi kommunikasiya platforması kimi ideoloji-siyasi baxımdan müharibə şəraitində yaşayan ölkənin həqiqətlərinin dünya müstəvisinə çıxmasında fəal iştirak etməlidir. Azərbaycan Prezidenti cənab İlham Əliyev 2020-ci il iyun ayının 25-də "N" saylı hərbi hissənin şəxsi heyəti ilə görüşündə bununla bağlı dəyərli fikirlərini bölüşüb, xüsusən də düşmənə qarşı səmərəli əks-hücumun təşkili baxımından gənclərin tariximizin yaxşı öyrənməlrinə ehtiyac olduğunu vurğulayıb: *"Bizim gənclər bu tarixi bilməlidirlər, qədim tariximizi bilməlidirlər. Bilməlidirlər ki, bugünkü Ermənistan Azərbaycan torpaqlarında formalaşıb, bugünkü Ermənistan xəritəsində coğrafi toponimlərin əsl adlarını bilməlidirlər. Mən gedirəm, haradasa xəritədə sonra dəyişdirilmiş erməni adlarını görürəm. Bütün yerli icra orqanlarına irad tuturam ki, bilmirsiniz, gedin soruşun. Fikirləşin nə yazırsınız, axı bunun qədim Azərbaycan adı var. Bu, bizim torpağımızdır. Ona görə, bu sahəyə xüsusi diqqət göstərməliyik. Orduda xidmət edən hər bir gənc tərxis olunandan, mülki həyata qayıdandan sonra öz tarixini olduğu kimi bilməlidir".*

Əlbəttə, ümumi düşmənə qarşı mübarizədə son illər medianın fəaliyyətində müsbət irəliləyişlər də özünü göstərir. 2015-ci ildən sonrakı dövrü təhlil etdikdə, informasiya terroru şəraitində ölkə jurnalistlərinin daha peşəkarcasına davrandığını müşahidə etmək mümkündür. Müdafiə Nazirliyinin, media ilə işləyən ictimai təşkilatların, vətəndaş cəmiyyəti institutlarının informasiya savaşında davranış məsələləri barədə ictimai müzakirələr açmaları, bu mövzuda tövsiyə xarakterli mülahizələrin çoxalması KİV-in informasiya savaşında ciddi dönüş yaradıb. KİV cəbhə xəttindən məlumat və yaxud foto-video görüntü yayarkən Azərbaycan Ordusunun həqiqi üstünlüyünü təbliğ edir, ermənilərin hərbi uğursuzluqlarına daha çox diqqət yetirirlər. Mediamız işğalçı dövlətin siyasi və hərbi böhran keçirdiyini onun öz dilindən alaraq operativ şəkildə yayır.

2016-cı ilin aprel ayının ilk günlərində təmas xəttində baş vermiş şiddətli döyüşlərdə KİV-in mütəşəkkillik nümayiş etdirərək hadisələrə soyuqqanlı, peşəkar yanaşması, hərbi sirlərin yayılmaması üçün ölçülüb-biçilmiş addımlar atması, əhali arasında vətənpərvərliyin təşviq olunması, ordumuzun döyüş əzminin xüsusi təqdimetmə formaları ilə təbliği, dolğun faktlarla düşmənin uğursuzluqlarını işıqlandırması onun davranış kodekslərini mənimsədiyinin göstəricisidir. Mediamız hərbi vəziyyətlərdə məqsədəuyğun olmayan məlumatların, qeyri-rəsmi xəbərlərin, dezinformasiyaların yayılmasından demək olar ki, tam uzaqlaşıb. Bir neçə illər əvvəl buraxılmış ciddi səhvlər artıq təkrarlanmır.

Bu gün mediamız üçün dil amili də mühüm əhəmiyyət daşıyan məsələlərdəndir. Azərbaycan dili dövlətimizin əsas atributlarından biri olduğundan media bu mövzuya daha həssas yanaşmalı, dilimizin qorunması, zənginləşməsi üçün fəal iş aparmalıdır. Ana dilinin milli-mənəvi, siyasi-hüquqi statusunun möhkəmlənməsi, dövlət dilinin kənar təsirlərdən qorunması və saflığının təmin olunması həm də jurnalistlərin vəzifə borcudur. Qeyd edək ki, bu günlərdə dövlət başçısı mətbuatda və reklam məntlərində ana dilinin tələblərinin pozulması ilə bağlı qanunvericiliyə edilmiş dəyişiklikləri təsdiq edib. Həmin dəyişikliklərdə KİV-də ana dili normalarının pozulmasına görə inzibati məsuliyyət nəzərdə tutulub.

Koronavirus pandemiyasının cövlan etdiyi günlərdə bir məqamı da unutmaq olmaz, cəmiyyətdə həkimlər, polis əməkdaşları kimi, jurnalistlərin də üzərinə mühüm vəzifələr düşür. Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarları insanlar arasında geniş təbliğ edilməli, virusun doğurduğu fəsadlar, habelə sosial izolyasiya qaydalarının vacibliyi cəmiyyətə geniş izah olunmalı, cahil insanların yaydığı dezinformasiyalara qarşı tutarlı, qətiyyətli mövqe ortaya qoyulmalıdır. Bu gün sosial medianın, "vətəndaş jurnalistikası"nın xəbər əldə etmək və ötürmək kimi peşəkar öhdəliyi olmadığından, sosial şəbəkələrdə informasiya xaosu hökm sürür. Medianın əsas vəzifəsi belə bir vəziyyətdə ictimai rəyi düzgün yönəltmək, bu xaosun qarşısını almaqdır. Bir sözlə, elan olunmamış "səssiz müharibə"də media da öz qələmini süngüyə çevirməyi bacarmalıdır.

*Dövlət başçısının "Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında" sərəncamında qeyd olunduğu kimi, milli mətbuatın yaranmasının 145-ci ildönümü pandemiya dövrünün reallıqları nəzərə alınmaqla, ölkə miqyasında geniş qeyd olunacaq. Jurnalist təşkilatlarının təqdimatları əsasında mətbuatın inkişafında xidmətləri olan şəxslərin təltif edilməsi, eyni zamanda, sayca üçüncü binanın istifadəyə verilməsi də gözlənilən xoş hadisələr sırasındadır. Bütün bunlar çoxsaylı jurnalist ordusunu ürəkdən sevindirir, onların vətən və xalq qarşısındakı mənəvi məsuliyyətini artırır, yaradıcı əməyini stimullaşdırır. Bu gün əminliklə deyə bilərik ki, Azərbaycan dövləti və onun rəhbəri söz və mətbuat azadlıqlarını ölkədə həyata keçirilən demokratikləşmə prosesinin mühüm tərkib hissəsi kimi dəyərləndirir.*

***Bəxtiyar ƏZİZLİ,***
***"Azərbaycan"***

# Mətbuat fədaisi - Rəşid bəy İsmayılov

Azərbaycan milli mətbuatının 145 illik yubileyi ərəfəsində ötən əsrin əvvəllərində xalqımızın maariflənməsi, azadlığı və müstəqil dövlət quruculuğu uğrunda mübarizədə jurnalistlik fəaliyyəti ilə diqqət çəkən mətbuat cəfakeşlərindən Xəlil İbrahim, Əhməd Cavad, Məhəmməd Hadi, Əbdürrəhman Fətəlibəyli-Düdənginski, Mirzə Bala Məmmədzadə, Abdulla Sur, Mirzə Cəlal Yusifzadə, Mirzə Abbas Abbaszadə, Rəşid bəy İsmayılov və digərləri də böyük ehtiramla xatırlanır. Bu insanlar uzun illər tədqiqatdan kənarda qalmışdılar.



Rəşid bəy İsmayılov jurnalistlik fəaliyyəti nisbətən az araşdırılmış yazarlarımızdandır. O, xalqımızın yaddaşında və o dövrün mətbuat səhifələrində fəallığı ilə seçilən dəyərli yazar-müəllim kimi qalmışdır. Rəşid bəy ədəbi fəaliyyətə başladığı ilk illərdə xalqımızın haqq və hüquqlarının müdafiəçisi kimi oddan-alovdan keçsə də, bu yolda təqib və təzyiqlərə məruz qalsa da, amalından dönməmişdir. Əli qələm tutandan jurnalist, pedaqoq və tərcüməçi kimi xalqına xidmətdən yorulmamışdır.

Mətbuat sevdalısı, böyük ziyalı Rəşid bəy Əsəd oğlu İsmayılov 1877-ci ildə İrəvan şəhərində maarifpərvər ailədə dünyaya göz açmışdır. Orta təhsilini başa vurduqdan sonra İrəvan Müəllimlər Seminariyasında oxumuşdur. Xatırladaq ki, Rəşid bəyin böyük qardaşı Kərim bəy İsmayılov 1892-ci ildə Qori Müəllimlər Seminariyasını bitirib, "Molla Nəsrəddin" jurnalının fəal əməkdaşlarından idi. Böyük qardaşı ilə həmkar olmaq istəyən Rəşid bəy 1903-cü ildə "Şərqi-rus" qəzetində işə başlayır, Məhəmməd ağa Şahtaxtinski, Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadə ilə birlikdə çalışır. Rus dilini yaxşı bildiyindən, habelə bu sahədə "Molla Nəsrəddin"çi qardaşı ona dəstək göstərdiyindən Qafqazda və Rusiyada çap olunan rusdilli mətbuat orqanlarında da müntəzəm çıxışlar edir.

Dövrün görkəmli ədib və ziyalıları ilə dostluq əlaqələri qurur. "Şərqi-rus"un nəşri dayandırıldıqdan sonra "Novoye obozreniye" qəzetinin müsəlman həyatı və Yaxın Şərq şöbələrinə rəhbərlik edir.

1905-ci ildə azərbaycanca qəzet nəşr etmək üçün Qafqaz senzura komitəsinə ərizə verənlər içərisində Cəlil Məmmədquluzadə, Qafqaz canişini dəftərxanasının Hərbi-xalq idarəsinin tərcüməçisi, Qori Müəllimlər Seminariyasının yetişdirməsi Məmməd bəy Vəkilov, Batumdan Məmməd bəy Sancaqbəyzadə və Şəkidən Əbdülməbud Mustafayevlə bərabər Rəşid bəy İsmayılov da var idi. O, "Təzə zaman" adlı mətbuat orqanını nəşr etdirmək üçün Qafqaz canişininə müraciətində bildirir ki, geniş proqramlı bir qəzet çap etmək, onun vasitəsilə Qafqaz xalqları arasında dostluq və birlik ideyaları yaymaq istəyindədir. Lakin onun panislamist ruhlu olması bəhanə gətirilərək qəzetin nəşrinə icazə verilmir. Hətta ona qarşı əsassız iddia da irəli sürülür.

Amalından geri çəkilməyən Rəşid bəy canişinliyə rəsmi müraciət edərək dörd milyonluq müsəlman əhalisinin yalnız bir mətbuat orqanına - "Həyat" qəzetinə malik olmasını böyük insafsızlıq adlandırır, senzura komitəsindəki erməni burjua millətçilərinin antihumanist və şovinist mövqeyini açıqlayır. Çap etmək istədiyi kiçik formatlı, müəyyən hissəsi elanlardan ibarət "Təzə zaman"ın senzuradan keçirilməsinin vur-tut 30-40 dəqiqə vaxt aparacağını göstərir, "senzor çatışmazlığı"nın formal və komitənin praktikasında tez-tez istifadə edilən bəhanə olduğunu canişinin nəzərinə çatdırır.

Lakin onun yazdıqlarına reaksiya verilmir. Rəşib bəy İsmayılov prinsipiallıq göstərərək Qafqaz senzura komitəsinin Azərbaycan mətbuatına və ədəbiyyatına düşmən münasibətini, ilk növbədə, burada öz xalqının mənafeyini müdafiə edən azərbaycanlı senzorun olmaması ilə izah edir: "Qafqaz senzura komitəsində ermənilərdən, gürcülərdən və ruslardan senzorlar var, azərbaycanlılardan isə bir nəfər də yoxdur. Müsəlman mətbuatının senzuradan keçirilməsi iki erməniyə - Kişmişov və Qaraxanova tapşırılmışdır. Qəti şəkildə bildirir və sübut etməyə hazıram ki (əks təqdirdə böhtan atdığıma görə cavab verməyə hazıram), onlar şərq dilləri ilə çox yarıtmaz səviyyədə tanışdırlar".

Azərbaycanlı ziyalılar tərəfindən senzura komitəsinin nəzərinə dəfələrlə çatdırılan bu həqiqət yenə də təsirsiz qalır. Lakin bundan sonra Rəşid bəy İsmayılov özünəməxsus cəsarət və publisistik ehtirasla paytaxt qəzetlərində çıxan məqalələrində Azərbaycan mətbuatına münasibətdə laqeydliyi, irad və tələblərini senzura komitəsindən o qədər də fərqli mövqe tutmayan Qafqaz canişininin də nəzərinə çatdırır. Ümumiyyətlə, bu zaman M.Şahtaxtinski, Ə.Ağayev, C.Məmmədquluzadə, M.Ş.Mirzəyev və Rəşid bəy İsmayılov kimi qələm sahibləri, ziyalılar Azərbaycan mətbuatının taleyinin erməni əsilli Kişmişov və Qaraxanova, habelə azərbaycanlılara ögey münasibət bəsləyən şəxslərə tapşırılmasına qarşı çıxırlar.

Uzunmüddətli yazışmalardan və canişinə göndərdiyi çoxsaylı şikayət ərizəsindən sonra Rəşid bəy İsmayılov "Təzə zaman"ın nəşrinə icazə ala bilir. Az sonra hələ "Şərqi-rus" qəzetindən yaxşı tanıdığı Cəlil Məmmədquluzadə ilə birlikdə Məmməd bəy Vəkilovun "İqbal" qəzetinin xeyrinə "Novruz" və "Təzə zaman" qəzetlərinin nəşrindən imtina edirlər.

Rəşid bəy İsmayılov publisist fəaliyyətlə yanaşı, elmi yaradıcılıqla da məşğul olub. "Müxtəsər Qafqaz tarixi və Zaqafqaziyada zühur edən məşhur türk ədib və şairlərinin müxtəsərən tərcümeyi-halları" kitabı 1904-cü ildə "Şərqi-rus" mətbəəsində çap olunur. Kitabda Qafqazın, o cümlədən XIX əsr Azərbaycan tarixindən bəhs olunur. Ədibin tərcüməçilik fəaliyyəti də diqqətçəkəndir. Rəşid bəy qardaşı Qori Müəllimlər Seminariyasının məzunu Kərim bəy kimi rus dili ilə bərabər gürcü dilini də yaxşı bilirdi. Tiflis ədəbi mühiti onda teatra da dərin maraq doğurur. Çox keçmir beynəlmiləl tərkibli Azərbaycan teatr truppası ilə sıx əməkdaşlıq edir. Teatrın repertuar baxımından yeni əsərlərlə zənginləşməsinə böyük səy göstərir. Bu məqsədlə o, gürcü dramaturqu Zurab Antonovun mövzusu Azərbaycan folklorundan alınan "Koroğlu" pyesini dilimizə tərcümə edir. Bu, Azərbaycan səhnəsində tamaşaya qoyulan ilk faciə əsəri olur.

Bu haqda 1889-cu ildə "Kafkaz" qəzeti öz səhifəsində yazırdı: "Bu gün, iyunun 9-da Bank teatrında Azərbaycan dilində tamaşa göstəriləcək. Tamaşaya gürcü dramaturqu Zurab Antonovun Rəşid bəy İsmayılov tərəfindən tərcümə edilmiş "Koroğlu" dramı qoyulacaqdır. Tamaşada yığılan pul Azərbaycan teatr fondunun yaradılmasına sərf ediləcəkdir".

Mətbuat sevdalısı jurnalist, naşir və pedaqoq Rəşid bəy İsmayılovun ictimai-siyasi və ədəbi fəaliyyətində Azərbaycan xalqının maariflənməsinə, müstəmləkə buxovundan azad olmasına və milli dövlət quruculuğuna xüsusi istək və dəstək nümayiş olunur. Jurnalist Rəşid bəy İsmayılov Azərbaycan Xalq Cümhuriyyəti dövründə Nazirlər Şurasında məsul vəzifə sahibi olmuşdur. Bundan başqa, 15 yanvar 1919-cu ildə Bakıda İrəvan quberniyasında yaşayan azərbaycanlıların fövqəladə iclası keçirilərkən "Həmyerlilər cəmiyyəti" təsis edilir. Millət təəssübkeşi Rəşid bəy İsmayılov yekdilliklə bu cəmiyyətin məsul katibi seçilir və qurumun geniş fəaliyyəti üçün səmərəli işlər görür.

Tədqiqatçıların Rəşid bəy İsmayılovla bağlı araşdırmalarından məlum olur ki, ölkəmiz 1920-ci ilin aprelində sovet imperiyası tərəfindən işğal olunduqdan və bolşevik-daşnak birləşmələri Xalq Cümhuriyyətini süquta uğratdıqdan sonra repressiyadan tək-tək də olsa yayına bilən cümhuriyyət qurucularından biri olmuşdur. Sovetləşmənin ilk illərində Bakıda 18 saylı məktəbdə tarix fənnini tədris etmişdir. Bu müddətdə yenə də yazıb-yaratmaqdan çəkinməmişdir, "Azərbaycan tarixi" adlı kitab üzərində işləyib, onu 1923-cü ildə nəşr etdirmişdir. Əsərin "Mavəyari-Qafqazın elani-istiqlalı" hissəsi Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ərəfəsindəki vəziyyətə, "Azərbaycan Cümhuriyyəti" bölməsi isə hökumətin fəaliyyətinə həsr edilmişdir. Əsərdə Azərbaycan tarixinin qədim dövrlərdən başlayaraq 1920-ci ilin aprelinə qədər olan dövrü genişliyi ilə işıqlandırılmışdır.

Tədqiqatçılar Azərbaycan tarixinin elmi mənbələr əsasında araşdırılması sahəsində Abbasqulu ağa Bakıxanovdan sonra ikinci təşəbbüsün Rəşid bəy İsmayılova məxsus olduğunu bildirirlər. Kitabda Qafqazın, o cümlədən Azərbaycanın XIX əsr tarixinin bəzi məsələləri öz əksini tapıb.

Jurnalist prinsipiallığı, millət təəssübkeşliyi ilə seçilən, Azərbaycan milli mətbuatının yaranmasında və inkişafında xidmətləri olan fəal yazar, pedaqoq və tarixçi Rəşid bəy İsmayılov 64 yaşında (1941) Bakıda dünyasını dəyişmişdir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

## “Onkoloji yardım haqqında”, “Ədliyyə orqanlarında qulluq keçmə haqqında”, “Atçılıq haqqında”, “Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında”, “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında”, “Sığorta fəaliyyəti haqqında”, “Könüllü fəaliyyət haqqında”, “Bədən tərbiyəsi və idman haqqında”, “Təhsil haqqında” və “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** “Onkoloji yardım haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 656; 2008, № 7, maddə 602) 9.2-ci maddəsində “əlillik və ya sağlamlıq imkanlarının məhdudluğu təyin olunmuş” sözləri “, əlilliyi, o cümlədən sağlamlıq imkanlarının məhdudluğu müəyyən edilmiş” sözləri ilə əvəz edilsin.

**Maddə 2.** “Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 586; 2007, № 1, maddə 1, № 8, maddə 756, № 11, maddələr 1078, 1081; 2008, № 3, maddə 155, № 6, maddə 481, № 8, maddələr 694, 710; 2009, № 6, maddə 399, № 11, maddə 878; 2010, № 3, maddə 171, № 4, maddə 273, № 11, maddə 944; 2011, № 2, maddələr 71, 72; 2012, № 11, maddə 1040; 2015, № 10, maddə 1089; 2016, № 6, maddə 984; 2017, № 5, maddə 729, № 7, maddə 1252; 2018, № 3, maddə 398, № 12 (I kitab), maddə 2473; 2019, № 5, maddə 797, № 12, maddə 1885) 23.9-cu maddəsinin birinci cümləsində “əlil olması” sözləri “əlilliyinin müəyyən edilməsi” sözləri ilə əvəz edilsin.

**Maddə 3.** “Atçılıq haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 5, maddə 399; 2008, № 6, maddə 462; 2009, № 12, maddə 954; 2017, № 1, maddə 13, № 7, maddə 1274) 28.1.3-cü maddəsində “əlillər” sözü “əlilliyi olan şəxslər” sözləri ilə əvəz edilsin.

**Maddə 4.** “Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 6, maddə 559; 2008, № 7, maddə 602; 2014, № 4, maddə 334; 2017, № 5, maddə 688; 2019, № 7, maddə 1178) 13.4-cü maddəsində “sağlamlıq” sözündən əvvəl “o cümlədən” sözləri əlavə edilsin və həmin maddədə “qüsurları” sözü “pozuntuları” sözü ilə əvəz edilsin.

**Maddə 5.** “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 7, maddə 710; 2011, № 12, maddə 1088; 2018, № 7 (I kitab), maddə 1382; 2019, № 3, maddə 379) 10.4-cü maddəsində “ikinci qrup əlillər” sözləri “ikinci dərəcə əlilliyi olan şəxslər” sözləri ilə və “əlillər və ya qocalar evlərinə” sözləri “ahıllar və əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrinə” sözləri ilə əvəz edilsin.

**Maddə 6.** “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 3, maddə 144, № 7, maddə 602; 2009, № 7, maddə 517; 2011, № 1, maddə 11; 2013, № 12, maddə 1470; 2014, № 7, maddələr 771, 779; 2015, № 11, maddə 1263; 2016, № 3, maddə 410, № 6, maddə 976; 2017, № 7, maddələr 1286, 1294, № 12 (I kitab), maddə 2221; 2018, № 7 (I kitab), maddə 1392; 2019, № 1, maddələr 19, 33, 50, № 5, maddələr 793, 815, № 6, maddə 999, № 8, maddə 1362) 14.2.3-cü maddəsinə “, 18 yaşınadək” sözlərindən əvvəl “o cümlədən” sözləri əlavə edilsin.

**Maddə 7.** “Könüllü fəaliyyət haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 7, maddə 504; 2013, № 3, maddə 224; 2018, № 5, maddə 868) 3.0.1-ci maddəsində “əlillərə” sözü “əlilliyi olan şəxslərə” sözləri ilə və “qocalara” sözü “ahıllara” sözü ilə əvəz edilsin.

**Maddə 8.** “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 613; 2010, № 6, maddə 489; 2011, № 2, maddə 71; 2013, № 11, maddə 1281; 2014, № 4, maddə 340; 2015, № 5, maddə 507; 2016, № 3, maddə 420, № 12, maddə 2021; 2017, № 1, maddə 11, № 7, maddə 1272; 2018, № 7 (I kitab), maddələr 1393, 1412, № 10, maddə 1966; 2019, № 5, maddə 797) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 1.0.21-ci, 1.0.24-cü, 4.0.9-cu, 5.0.13-cü, 11.4-cü, 16.1-ci, 16.6.2-ci və 58.3-cü maddələrdə ismin müvafiq hallarında “sağlamlıq imkanları məhdud uşaqlar və əlillər” sözləri ismin müvafiq hallarında “əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar” sözləri ilə əvəz edilsin;

8.2. 3.0.4-cü maddədə “sağlamlıq imkanları məhdud uşaqlar, əlillər” sözləri “əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar” sözləri ilə əvəz edilsin;

8.3. 22-ci maddə üzrə:

8.3.1. adında, 22.1-ci, 22.3-cü və 22.5-ci maddələrdə ismin müvafiq hallarında “Sağlamlıq imkanları məhdud uşaqlar və əlillər” sözləri ismin müvafiq hallarında “Əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar” sözləri ilə əvəz edilsin;

8.3.2. 22.2-ci və 22.6-cı maddələrdə ismin müvafiq hallarında “sağlamlıq imkanları məhdud uşaqlar və əlillər” sözləri ismin müvafiq hallarında “əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar” sözləri ilə əvəz edilsin;

8.3.3. 22.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

“22.4. Əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların reabilitasiyası və sosial bacarıqlarının inkişafı, adaptiv bədən tərbiyəsi və adaptiv idman metodlarından istifadə etməklə, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.”;

8.3.4. 22.7-ci maddədə “əlillərin” sözü “əlilliyi olan şəxslərin” sözləri ilə və “sağlamlıq imkanları məhdud uşaqların və əlillərin” sözləri “əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların” sözləri ilə əvəz edilsin;

8.4. 52.3-cü maddədə “əlillərin” sözü “əlilliyi olan şəxslərin” sözləri ilə əvəz edilsin.

**Maddə 9.** “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 684; 2011, № 2, maddə 70; 2014, № 1, maddə 3; 2015, № 11, maddə 1266; 2016, № 1, maddə 41, № 11, maddə 1766; 2017, № 2, maddə 145, № 5, maddə 691, № 7, maddələr 1277, 1300, № 12 (I kitab), maddə 2202; 2018, № 7 (I kitab), maddələr 1381, 1409, № 11, maddə 2208; 2019, № 5, maddə 798, № 7, maddə 1190, № 8, maddə 1382, № 11, maddə 1684, № 12, maddə 1881) 10.6-cı maddəsində “Sağlamlıq” sözü “Əlilliyi olan, o cümlədən sağlamlıq” sözləri ilə və “sosial adaptasiyasını” sözləri “sosial bacarıqlarının inkişafını” sözləri ilə əvəz edilsin.

**Maddə 10.** “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 572; 2011, № 12, maddə 1089; 2013, № 11, maddə 1318; 2014, № 1, maddə 9, № 7, maddə 777; 2015, № 2, maddələr 74, 96, № 3, maddə 253; 2016, № 2 (I kitab), maddə 184, № 3, maddə 416; 2017, № 7, maddə 1290; 2018, № 10, maddə 1961; 2019, № 1, maddələr 35, 49) aşağıdakı dəyişikliklər edilsin:

10.1. 5.2.3-cü maddədə “əlildirsə” sözü “əlilliyi olan şəxsdirsə” sözləri ilə əvəz edilsin;

10.2. 16.3.1-ci maddədə “sığorta olunana əlillik” sözləri “sığortaolunanın əlilliyi” sözləri ilə və “təyin” sözü “müəyyən” sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 may 2020-ci il*

## Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, “Daşınmaz əmlakın dövlət reyestri haqqında” və “Reklam haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu, 11-ci, 12-ci, 13-cü, 17-ci və 26-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Mülki Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2 (I kitab), maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr 1998, 2018; 2017, № 2, maddələr 151, 153, № 4, maddə 524, № 5, maddələr 703, 735, № 6, maddə 1035, № 11, maddə 1953, № 12 (I kitab), maddələr 2210, 2234, 2239; 2018, № 2, maddə 142, № 4, maddə 650, № 5, maddələr 851, 845, № 11, maddə 2212, № 12 (I kitab), maddələr 2467, 2518, 2526, 2533; 2019, № 1, maddələr 23, 50, № 5, maddələr 806, 812, 814, № 6, maddələr 994, 996, № 7, maddə 1202, № 8, maddə 1369, № 11, maddə 1681, № 12, maddə 1908; Azərbaycan Respublikasının 2020-ci il 24 aprel tarixli 62-VIQD nömrəli Qanunu) 139-1.1.10.2-ci maddəsində “müvafiq icra hakimiyyəti orqanına” sözləri “tikinti barədə məlumatlandırılan orqana (quruma)” sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 838; 2014, № 7, maddələr 766, 787, № 10, maddə 1165; 2015, № 5, maddə 503; 2016, № 2 (II kitab), maddə 215, № 11, maddə 1773, № 12, maddə 2010; 2017, № 2, maddə 154, № 5, maddə 755, № 6, maddələr 1019, 1043; 2018, № 3, maddə 373, № 5, maddələr 837, 850, № 12 (I kitab), maddə 2535; 2019, № 1, maddə 23, № 3, maddələr 375, 391, № 6, maddə 987; Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 72-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 46-cı maddəyə, 56-cı maddənin ikinci cümləsinə, 82-ci maddənin adına, 86.3-cü maddənin ikinci cümləsinə (hər iki halda), 103.1.2-ci maddəyə (hər iki halda) “orqanın” sözündən sonra “(qurumun)” sözü əlavə edilsin;

2.2. 80.6-cı maddənin birinci cümləsinə “orqanı” sözündən sonra “və ya müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum” sözləri əlavə edilsin.

**Maddə 3.** “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 603; 2006, № 6, maddə 482; 2007, № 8, maddə 745; 2008, № 3, maddə 154; 2009, № 12, maddə 948; 2011, № 11, maddə 983; 2012, № 6, maddə 509, № 7, maddə 668, № 11, maddə 1053; 2013, № 6, maddələr 607, 623, № 7, maddə 791, № 12, maddə 1484; 2014, № 1, maddə 7, № 2, maddə 97, № 6, maddələr 597, 604; 2015, № 3, maddə 255; 2016, № 4, maddə 645, № 6, maddə 990, № 7, maddə 1244, № 11, maddələr 1770, 1775; 2017, № 5, maddə 738, № 6, maddə 1037, № 10, maddə 1772, № 11, maddə 1954, № 12 (I kitab), maddə 2235; 2018, № 2, maddə 167, № 3, maddə 382, № 5, maddə 852; 2019, № 1, maddə 25, № 4, maddə 593) 8.0.10.2-ci maddəsində “müvafiq icra hakimiyyəti orqanına” sözləri “tikinti barədə məlumatlandırılan orqana (quruma)” sözləri ilə əvəz edilsin.

**Maddə 4.** “Reklam haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 812; 2016, № 11, maddə 1755, № 12, maddə 1996; 2017, № 3, maddə 334, № 5, maddələr 675, 748, № 6, maddə 1029, № 7, maddə 1307, № 12 (I kitab), maddə 2230; 2019, № 1, maddə 29, № 3, maddə 390, № 4, maddə 578, № 8, maddə 1384, № 12, maddə 1881) 33.3-cü maddəsinə “yaşayış binalarının” sözlərindən əvvəl “tikintisinə icazə tələb olunan” sözləri əlavə edilsin və “inşasına müvafiq icra hakimiyyəti orqanlarının icazəsi” sözləri “tikintisinə icazə” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyun 2020-ci il*

## “Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, “Daşınmaz əmlakın dövlət reyestri haqqında” və “Reklam haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 12 iyun tarixli 130-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2000-ci il 25 avqust tarixli 386 nömrəli, “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” 2004-cü il 10 avqust tarixli 113 nömrəli, “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə” 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli, “Reklam haqqında” Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununun tətbiqi və “Reklam haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli 644 nömrəli Fərmanının ləğvi haqqında” 2015-ci il 14 iyul tarixli 554 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, “Daşınmaz əmlakın dövlət reyestri haqqında” və “Reklam haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 12 iyun tarixli 130-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. “Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 609; 2001, № 10, maddə 640; 2003, № 8, maddə 435, № 10, maddə 552; 2004, № 6, maddə 435; 2005, № 2, maddə 64, № 5, maddə 403; 2006, № 7, maddə 590, № 12, maddə 1034; 2007, № 3, maddə 228, № 6, maddə 606, № 11, maddə 1110, № 12, maddə 1246; 2008, № 6, maddə 493; 2009, № 3, maddə 163, № 5, maddə 324; 2010, № 5, maddə 399, № 7, maddələr 610, 628; 2011, № 8, maddə 751; 2012, № 6, maddə 535; 2014, № 6, maddə 626; 2016, № 9, maddə 1464, № 12, maddə 2071; 2017, № 2, maddə 186; 2018, № 1, maddə 43, № 2, maddə 171, № 7 (I kitab), maddə 1448; 2019, № 4, maddə 617, № 7, maddə 1239; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 7 may tarixli 1015 nömrəli Fərmanı) 3.9-cu bəndindən “139-1.1.10.2-ci,” sözləri çıxarılsın.

2. “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli 113 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 621; 2005, № 2, maddə 64, № 8, maddə 718; 2006, № 7, maddə 590; 2007, № 6, maddə 606; 2010, № 4, maddə 287, № 7, maddə 610; 2011, № 11, maddə 998; 2013, № 9, maddə 1052, № 12, maddə 1509; 2014, № 2, maddə 108, № 4, maddə 361, № 6, maddə 632; 2015, № 7, maddə 827, № 9, maddə 1016; 2016, № 11, maddə 1825; 2017, № 3, maddə 348; 2018, № 2, maddələr 202 və 203) 4.2.8-ci yarımbəndindən “, 8.0.10.2-ci” sözləri çıxarılsın.

